# AZƏRBAYCAN | AZERBAIJAN

TIER 2

Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCİRF) 1998-ci ildə Beynəlxalq Dini Azadlıqlar Aktı (IRFA) ilə təsis olunmuş, bütün dünyada dini azadlığı monitorinq edən müstəqil, iki partiyanın dəstəklədiyi ABŞ hökumətinin federal hökumət komissiyasıdır. USCİRF bu tövsiyələri bizim qanunla müəyyən edilmiş mandatımıza və Ümumdünya İnsan Haqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə müəyyən edilmiş standartlara əsaslandırır. USCİRF Dövlət Departamentindən ayrı və fərqli təşkilatdır. 2018-ci il İllik Məruzəsi yerlərdə pozuntuları sənədləşdirən Komissarlar və peşəkar heyət tərəfindən hazırlanmış bir illik işin kulminasiyasıdır və siyasət ilə bağlı ABŞ Hökumətinə müstəqil tövsiyələr verir. 2018-ci ilin İllik Məruzəsi 2017-cı ilin yanvar ayından 2017-cı ilin dekabr ayına qədər olan müddəti əhatə edir, hərçənd ki, bəzi hallarda bu zaman çərçivəsindən sonra baş vermiş əhəmiyyətli hadisələr də qeyd edilmişdir. USCIRF barədə ətraflı məlumat üçün, burada vebsaytı ziyarət edin və ya USCIRF ilə birbaşa 202-523-3240 nömrəsi vasitəsilə əlaqə saxlayın.

## Azərbaycan

### Əsas Tapıntılar

Azərbaycan hökuməti 2017-ci ildə də dini azadlıqlarla bağlı əsasən güzəştsiz mövqeyini qoruyub saxlamışdır. Hökumət din haqqında qanun, eləcə də inzibati və cinayət məcəllələrinin müxtəlif bəndləri əsasında dini fəaliyyətləri sərt tənzimləyir. Cəzalar həm cərimə həm də həbs ola bilər. Protestantların, “Yehova Şahidləri”nin və bəzi müsəlman qrupların polis tərəfindən reyd və cərimələrlə incidilməsi il boyu yoxlanılmamış qalıb. Protestantlar, “Yehova Şahidləri” və türk din xadimi Səid Nursinin davamçıları dini ədəbiyyat və ibadət üçün toplanma ilə bağlı müxtəlif məhdudiyyətləri pozmalarına görə cəzalandırılıblar. Dövlətin diktə etdiyi qaydalara riayət etməyən müsəlman dini liderlərə xəbərdarlıq edilib, onlar cərimə və ya həbs edilib və bir halda məscid sökülüb.

Azərbaycanın səlahiyyətli qurumları adətən şiə din xadimlərinin və fəalların həbsinə bəraət qazandırmaq üçün qonşu İran tərəfindən müdaxilə təhlükəsini əsas gətirirlər. Belə hallarda İranın Azərbaycana müdaxiləsinin real miqyasını və ya hökumət tərəfindən bəzi fərdlər və qrupların dini inanclarına görə, yoxsa siyasi fəaliyyətlərinə görə hədəf alınmalarını bilmək çətindir. 2017-ci ilin dekabr ayında 2016-cı ildə başlanılmış məhkəmələrin davamı olaraq Müsəlman Birliyi Hərəkatının (MBH) 12 üzvü terrorçuluq da daxil olmaqla müxtəlif ittihamlarla 12-17 il müddətinə həbs olundular. MBH-nın dini təşkilat və ya siyasi hərəkat və ya hər ikisi olması

aydın deyil. 2017-ci ilin yanvar ayında eyni qrupa məxsus olan 18 fəal 10-20 arasında həbs cəzası aldılar. Qeyri-hökumət təşkilatlarının (QHT-lər) irəli sürdüyü iki ayrı siyahıya əsasən Azərbaycanın 160 vicdan məhbusunun təxminən 2/3-nin dini əsaslarla həbs olunduğu iddia edilir. 2017-ci ildə müxtəlif məhbuslar həbsxana işçiləri tərəfindən işgəncəyə məruz qaldıqlarını bildiriblər.

Bu narahatlıqlar əsasında 2018 USCIRF Beynəlxalq Dini Azadlıq Aktı (IRFA) çərçivəsində "xüsusi narahatlıq doğuran ölkə" statusunun "sistemli, mütəmadi, bərbad" standartının ən azı birinə uyğun şəkildə dini azadlığı pozmasına və ya buna göz yummasına görə yenidən Azərbaycanı 2-ci Qrupa salır.

**ABŞ Hökumətinə tövsiyələr**

- Azərbaycan hökumətini, ölkənin din haqqında qanunvericiliyini Avropa Şurasının Venesiya Komissiyasının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 2012-ci il tövsiyələrinə uyğunlaşdırmaq üçün bu qanunvericilikdə islahatlar aparmağa vadar etmək;

- Vicdan məhbuslarının azad olunmasını təmin etmək, tutulanların ailələri ilə görüşlərinin, eləcə də insan haqları monitorinqinin, yetərli tibbi qayğının, hüquqi məsləhətin və dini məkandan istifadənin əlçatan olmasını təmin etmək üçün Azərbaycan hökumətinin ən yüksək səviyyəli rəsmiləri ilə iş aparmaq.

- Səfir səviyyəsində təmaslar daxil olmaqla, Azərbaycandakı ABŞ səfirliyi və insan haqları və dini azadlıq fəalları arasında təmasları davam etdirmək.

- Azərbaycan hökumətini BMT-nin din azadlığı və inanc üzrə, həmçinin Ədliyyənin müstəqilliyi və İşgəncələr üzrə Xüsusi Məruzəçilərinin ziyarətinə razılıq verməyə; xüsusi ziyarət günlərini təyin etməyə; və bu ziyarətlər üçün zəruri şəraiti təmin etməyə vadar etmək;

- Azərbaycan hökumətini Dözümlülük sahəsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) üç Şəxsi Nümayəndəsinin səfərlərinin təşkil olunmasına və həyat keçirilməsinə həvəsləndirmək.

- Azərbaycan hökumətinə din haqqında qanunun sərt qeydiyyat tələblərinə dəyişiklik edilməsi daxil olmaqla dini qrupların sərbəst fəaliyyət göstərmələrinə imkan yaratması üçün təzyiq göstərmək;

- ABŞ Beynəlxalq İnkişaf Agentliyinin və Azərbaycandakı ABŞ Səfirliyinin proqramında dini azadlığa dair qrant kateqoriyasını və fəaliyyət sahəsini müəyyən etmək və Demokratiyaya Milli Dəstək Fondunu tolerantlıq və din və inanc üzrə vətəndaş cəmiyyəti proqramlarına qrantlar verməyə həvəsləndirmək; və

- Radio Free Europe/Radio Liberty-nin Azərbaycan dilində buraxılışı olan Azadlıq Radiosuna və "Amerikanın Səsi"nin Azərbaycan dilində buraxılışına, dini azadlıq daxil olmaqla Azərbaycanın daxilində baş verən hadisələr barədə obyektiv məlumatın çatdırılmasını davam etdirmələri üçün ABŞ-ın kəsintisiz maliyyə dəstəyini təmin etmək.

**Ümumi məlumat**

**Azərbaycan**
**Tam ad:** Azərbaycan Respublikası
**Hökumət:** Prezident üsul idarəli respublika
**Əhali:** 10 000 000
**Hökumət tərəfindən tanınmış dinlər/inanclar:** Şiəlik, Sünnilik, Xristianlıq, İuadizm
**Dini Demoqrafiya*:**
96% Müsəlman (65% şiə, 35% sünni)
4% Digərlər (provaslav və protestant xristianlar, katoliklər, yəhudilər, bəhailər və digələri)
*ABŞ Dövlət Departamenti

Əhalisinin əksəriyyətinin müsəlman təşkil edən digər keçmiş sovet respublikalarından fərqli olaraq Azərbaycanın müsəlman əhalisinin əksəriyyəti şiədir. Şiələr, sünnilər, rus pravoslavlar və yəhudilər rəsmi olaraq ölkənin "ənənəvi" dini qrupları kimi göstərilirlər. Tarixən, bu ölkə dini plüralizmə qarşı tolerant olmuşdur. Ölkə 1993-cü ildən bəri Əliyevlər ailəsi tərəfindən, ilk öncə Heydər Əliyev, daha sonra isə 2003-cü ildən bəri prezident olmuş oğlu İlham tərəfindən idarə olunur.

Azərbaycanın 2009-cu il din haqqında qanunu, dini fəaliyyətlərə sərt şəkildə nəzarət edir: mürəkkəb qeydiyyat prosedurları tətbiq edilir, dini fəaliyyətlər ancaq qrupun qeydiyyatdan keçirdiyi ünvanla məhdudlaşır, dini ədəbiyyatın məzmunu, hazırlanması, idxalı, ixracı və

paylanması və satışı məhdudlaşdırılır, dini fəaliyyətlər üçün dövlətin təsdiq etdiyi dini təhsil tələb edilir. Din haqqında qanunu pozduğu iddia olunanlar böyük məbləğdə cəriməyə tabe tutulurlar. 2014-cü ildə Avropa İnsan Haqları Məhkəməsi (AİHM) müəyyən etmişdir ki, bu qanun, hakimiyyətə "qanunsuz" dini fəaliyyəti müəyyən etmək və məhkəmə təqibinə məruz qoymaq üçün "qeyri-məhdud ixtiyar" verir. Din haqqında qanuna 2015-ci ildə edilən dəyişikliklərə əsasən dini qruplar öz fəaliyyətləri barədə rəsmi sənədlər hazırlamalı və dini bayraq və şüar kimi dini ifadə vasitələrini yalnız ibadət yerləri ilə məhdudlaşdırmalıdırlar. Xarici ölkədə təhsil almış Azərbaycan vətəndaşlarına və Azərbaycan vətəndaşı olmayan şəxslərə müsəlman ayinlərini idarə etmək qadağan edilir, onlara qarşı həbs və cərimə tətbiq edilir. Belə qaydalar İranda təlim görmüş imamların Azərbaycanda fəaliyyət göstərmələrinin qarşısını almaq üçündür. Bu baxımdan xaricdə təlim keçmiş xristian və yəhudi dini liderlərə istisnalar edilir.

Alternativ hərbi xidmətlə bağlı 2001-ci ildə Azərbaycan hökumətinin Avropa Şurası qarşısında öhdəlik götürməsinə baxmayaraq, hərbi xidmətdən imtina ilə bağlı cinayət məsuliyyəti yaradan cəzalar nəzərdə tutlub. Qanuna edilən digər düzəlişlər dini azadlığı daha da məhdudlaşdırır: rəsmi dairələr “ekstremist” fəaliyyətə qarşı geniş güc imkanlarına malikdirlər, iddia olunan ekstremist dini qrupların üzvləri vətəndaşlıqdan məhrum oluna bilərlər, polis dini ədəbiyyatı tənzimləyə bilər və dövlət məktəblərinə övladlarını göndərməyən valideynlərə qarşı inzibati cərimələr tətbiq oluna bilər.

2017-ci ilin yanvar ayında MBH-nın 18 fəalı 10-20 arasında həbs cəzası aldılar. 2017-ci ilin MBH ilə əlaqəsi olan digər 12 müttəhim uzunmüddətli həbsə məhkum edildilər; onlar 2015-ci ilin noyabrında əhalisi İran hökumətinə meylli olan Nardaran kəndində həbs olundular. İlk həbslər zamanı iki polis işçisi və beş mülki şəxs ölüb.

**Dini Azadlıqların Vəziyyəti 2017**

***Qeydiyyat vasitəsilə dövlət nəzarəti:*** Fəaliyyət göstərə bilmək üçün, dini qrupların dövlət qeydiyyatı məcburidir. Qeydiyyata götürülməmiş və ya “qeyri-qanuni” dini əsaslarla bağlı qeydiyyatdan keçməkdən imtina edən dini qruplar reydlərlə və digər cərimələrlə üzləşə bilərlər. Qeydiyyata məsul olan Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi (DQİDK) qeydiyyat müraciətlərinə baxmaqdan imtina etmişdir. Hesabat dövrünün sonuna qədər 2009-cu ildə müraciət etmiş bir çox icmalar hələ də DQİDK-nin ərizələrə baxacağını gözləyir. Hüquqi status ala bilməyən dini icmalara, dövlətin dəstəklədiyi Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) kənar olan bütün müstəqil məscidlər, eləcə də QMİ-nin özünün bəzi məscidləri daxildir. Demək olar ki, heç bir protestant məzhəbi (o cümlədən baptistlər, yeddinci gün adventistləri, pentakostallar)

qeydiyyata alınmamışdır və ona görə də bu qruplar öz fəaliyyətlərində bir sıra məhdiyyətlərlə qarşılaşırlar. “Yehova Şahidləri”nin də hüquqi statusu yoxdur. “Beynəlxalq Dini Azadlıq Assosiasiyası” və “Vicdan və Din Azadlığının Müdafiəsi Mərkəzi” kimi dini azadlıq üçün təşviqat aparan və ya dini müzakirə aparan QHT-lər qeydiyyata alınmamışdır. DQİDK-nin Bakı şöbəsi qanunlara riayət etmədiklərinə görə yeddi dini icmanın qeydiyyatının ləğv edildiyini bildirsə də, əlavə məlumat verilmədi.

***Müstəqil Müsəlmanların Repressiyası:*** Müsəlmanlar, digər inanclara şamil olunmayan əlavə dini məhdudiyyətlər ilə qarşılaşırlar. Bütün məscidlər, sovet dönəmindən qalmış QMİ-yə məxsus olmalıdır. Məscidlər Azərbaycan vətəndaşları tərəfindən təsis olunmalı və bütün imamları təyin edən QMİ-yə öz fəaliyyətləri barədə məlumat verməlidirlər. Polis 2008-ci ildən bəri məscidlərdən kənarda ibadət etmə qadağasını tətbiq edir. 2017-ci ilin iyulunda Masallı rayonundan olan, İranda təhsil almış şiə imamı Sərdar Babayev dini ayinlər yerinə yetirdiyinə görə üç il həbsə məhkum olunmuşdur.

Azərbaycanın şimalında yaşayan, bir çoxu etnik azərbaycanlı olmayan sünni müsəlmanlar və dövlətin diktə etdiyi şiə ibadət tərzinə uyğun olmayan şiə müsəlmanlar dövlət qurumları tərəfindən daha sərt nəzarətlə üzləşiblər. Hökumət sünni müsəlman azlıqların Şimali Qafqazdakı ekstremist qruplarla əlaqəsinin olmasından şübhələnir. 2017-ci ilin sentyabr ayının axırlarında Bakı polisi şiə müsəlmanlarına Aşuranın icazə verilməmiş tərzdə keçirilməsi ilə bağlı xəbərdarlıq edib. 2017-ci ilin sentyabr ayının ortalarında təhlükəsizlik qüvvələri və DQİDK-nin üzvləri Bakıda iki məsciddə reydlər keçirərək icmanın liderlərini müəyyən olunmamış “qeyri-qanuni dini ayinlər”ə görə cərimə ediblər. 2017-ci cilin mayında əsasən şiə ayin vaxtlarını ehtiva edən ölkənin rəsmi müsəlman təqviminə riayət etməkdən imtina etdiyinə görə Göyçay rayonunda bir imam cəza kimi işdən qovulmuş və cərimə edilmişdir. 2017-ci ilin aprel ayında türk din xadimi Səid Nursinin əsərlərini oxuduğuna görə sünni məzhəbinə mənsub olan bir şəxs dövlət qurumları tərəfindən cərimə olunub. 2017-ci ilin mart ayında Quba şəhərində toplantı zamanı həbs olunmuş sünni müsəlmanlar məhkəmə tərəfindən cərimə ediliblər. 2004-cü ildə QMİ-nin qaydalarına riayət etməməyə görə camaatı ilə birlikdə İçəri Şəhərdəki məscidlərin birindən qovulmuş şiə imamı 2017-ci ilin Ramazan ayında həmin məscidə qayıdarkən xəbərdarlıq almışdır.

***Dini Məhbuslar:*** “Azərbaycanda Siyasi Məhbusların Müdafiəsi Mərkəzi” və “Azərbaycanda Siyasi Məhbusların Siyahısı” adlı QHT-lər siyasi məhbusların siyahısına malikdirlər; 2017-ci ilin ikinci yarısı üçün olan siyahıda göstərilir ki, həmin dövr üzrə 90-100 şəxs, iddia olunduğuna görə dini inanclarına görə həbs olunmuşlar.

***İbadət Yerlərinin Qapadılması:*** 2009-cu ildən bəri Azərbaycanda əsasən sünni məscidləri olmaqla, çoxlu sayda dini ibadət yerləri bağlanmış və ya dağıdılmışdır. Nardaranda 2015-ci ilin noyabr ayında keçirilmiş reyd ərəfəsində dörd şiə məscidi məcburi şəkildə bağlanmışdır və belə məlumatlar var ki, 2016-cı ildə dörd sünni məscidi məcburi şəkildə qapadılmış və ya müxtəlif bəhanələrlə fəaliyyəti məhdudlaşdırılmışdır. 2017-ci ilin aprel ayında Bakıda etirazçı kütləsi Hacı Cavad məscidinin sökülməsinə maneə olduqdan sonra məsələyə Prezident İlham Əliyev şəxsən müdaxilə etdi. Əliyev məsələyə komissiyanın baxacağını və mövcud məscid sökülənə qədər yeni məscidin tikiləcəyi barədə söz versə də Hacı Cavad məscidi 2017-ci ilin iyulunda müəammalı şəkildə söküldü.

***Dini Azlıqların Statusu:*** Yəhudi icması Azərbaycanda uzun zamandır ki yaşayır və nadir hallarda anti-semitizm ilə üzləşmişdir. Azərbaycan hökuməti ictimaiyyətə açıq şəkildə anti-semitizmin olmamasını və İsrail ilə yaxşı münasibətlərinin olduğunu vurğulayır. Bakıda həmçinin azsaylı katolik icması da var ki, bu icma kilsənin tikintisi üçün Azərbaycan hökumətindən maddi yardım almışdır. Qax rayonunda, qeydiyyatdan keçmiş iki gürcü pravoslav kilsəsi dini mərasimlər keçirə bimirlər. Azərbaycan hökuməti Bakıda erməni Apostol, "Böyük Nəvaziş" və Lüteran kilsələri kimi müsadirə olunmuş dini məkanları geri qaytarmamış, müsadirə olunmuş mülkiyyətə görə hər hansı təzminat ödənilməmişdir.

2016-cı ilin yanvarında "Yehova Şahidləri"nin iki xanım üzvü Validə Cəbrayılova və İrina Zaxarçenko dini təbliğata görə bir ilə yaxın həbsdə olduqdan sonra azadlığa buraxılmışlar. Onlar 2017-ci ilin fevral ayında bütün ittihamlardan bəraət aldılar.

Bundan başqa iyirmiyə yaxın Yehova Şahidi özəl evlərdə ibadət üçün toplandıqlarına görə 2017-ci ildə saxlanılmışdır. 2017-ci ildə "Yehova Şahidləri"nin Bakıda ibadət üçün toplaşdıqları iki mənzil polis reydinə məruz qalmış, iştirakçılar tutulmuş və bir ev sahibinə cərimə ediləcəyi bildirilmişdir. 2017-ci iln yanvar ayının 1-də polis və DQİDK, Bərdə şəhərində "Yehova Şahidləri"nin ibadət toplantısına qarşı reyd keçirmişdir. Bir xanım Yehova Şahidi cinsi zorakılıqla təhdid edilmiş və ev sahibi daha sonra cərimə edilmişdir.

Azərbaycanın şimalında 2017-ci ildə Gürcüstanla həmsərhəd bölgədə Baptist icmasından iki keşiş Həmid Şabanov və Mehman Ağaməmmədov 2016-cı ilin noyabr ayında ibadətin icrası ilə əlaqədar onlara tədbiq olunmuş cərimələrin əleyhinə apelyasiya şikayəti verməyə davam ediblər. Azərbaycan hökuməti ehtimal ki, etnik gürcü müsəlman kəndi kimi həssas bir yerdə yerləşməsinə görə 1994-cü ildən etibarən onların dini icmalarını qeydiyyata almaqdan imtina etmişdir.

***Dini Materiallara Dövlət Nəzarəti:*** 2017-ci ildə dini ədəbiyyata qarşı rəsmi məhdudiyyət tətbiqi də davam etmişdir. Protestantlar, “Yehova Şahidləri” və türk din xadimi Səid Nursinin davamçıları belə məhdudiyyətləri pozduqlarına görə xüsusilə reydlərin, müsadirələrin, cərimələrin, saxlamaların və deportasiyaların hədəfi olmuşlar. 2017-ci ilin iyul ayında müstəqil Azərbaycan xəbər agentliyi Turan müəyyən edilməmiş qeyri-qanuni dini ədəbiyyatı paylayan şəxslərə qarşı keçirilmiş reyddə 10 nəfərin cərimə olunması barədə xəbər yaydı. Nazirlikdən bildirilən məlumata görə 2017-ci ilin birinci yarısında 138 nəfər dini “propaqanda” paylamağa görə saxlanılıb. Müsadirə olunanlar əşyalar arasında 1066 ədəd kitab, 102 CD və DVD disk, 94 qəzet və 16 audio material var. Hökumət iddia edir ki, “propaqanda” materiallarının əksəriyyəti zorakılığa çağırış edir.

2017-ci ildə dini azadlıqların pozulmasına beynəlxalq diqqəti çəkən iki epizodda iki qadın Yehova Şahidi qeyri-qanuni ədəbiyyatı payladıqlarına görə məhkum edildikləri bir illik həbsin qarşılığında təzminat almış, Amerika vətəndaşı tərəfindən təsis olunmuş Azərbaycanın yeganə xristian kitab dükanı səkkiz il davam edən müraciətdən sonra nəhayət lisenziya almağa müvəffəq olmuşdur.

***Naxçıvan eksklavında vəziyyət:*** İran, Ermənistan və Türkiyə ilə həmsərhəd olan, Azərbaycanın eksklavı Naxçıvanın 410 000 əhalisi var. Bu eksklav Azərbaycanın digər hissələri ilə müqayisədə daha sərt dini azadlıq məhdudiyyətləri ilə üzləşib. Bəhailik, adventistlik və Hari Krişna inanclarına qadağa qoyulub. Yerli sünni müsəlmanların məsciddən istifadəsinə qadağan qoyulub. 50-yə qədər şiə məscidlərinin, xüsusilə dövlət tərəfindən İranın təsir dairəsində olduğu düşünülən məscidlərin son illər ərzində qapadıldığı bildirilir.

## ABŞ siyasəti

Birləşmiş Ştatlar Azərbaycanın açıq bazar iqtisadiyyatına malik qərb yönümlü demokratiyaya keçid etməsini istəyir. Digər məqsədlərə regionda sabitliyi inkişaf etdirmək, əsas da Dağlıq Qarabağ münaqişəsinin həlli, enerji təhlükəsizliyinin artırılması, iqtisadi və siyasi islahatların gücləndirilməsi daxildir. ABŞ şirkətləri Azərbaycanın dənizdəki neft layihələrində əməkdaşlıq edirlər. Azərbaycan Şimali Atlantika Sazişi Təşkilatının (NATO) Əfqanıstandakı əməliyyatlarını “Şimali Paylama Şəbəkəsi”ndə iştirak etməklə dəstəkləyir və transmilli təhdidlərə, xüsusilə İran tərəfdən olan təhdidlərə qarşı çıxır. ABŞ yardımı vasitəsilə xüsusilə Xəzər Dənizi hövzəsində dəniz terrorçuluğu əleyhinə əməliyyat potensialı qurulur və hərbi təhlükəsizlik üzrə təlim

kurslarını keçirilir. ABŞ-ın Azərbaycanda vətəndaş cəmiyyətinə yardımı vətəndaş cəmiyyətinə kiçik qrantlar qismindədir və vətəndaş dialoquna yönəlib.

2017-ci ildə Dövlət Departamenti və ABŞ-ın ATƏT-dəki missiyası Azərbaycanda insan haqları vəziyyətinin tənqid olunması ilə bağlı ictimaiyyətə bir sıra bəyanatlar vermiş, amma o bəyənatlarda dindarlığın sıxışdırılması yer almamışdır. ABŞ-ın Azərbaycandakı səfirliyi dini azlıqların qeydiyyatı ilə bağlı tələblər və dini azlıqların ədəbiyyat məhdudiyyətləri ilə bağlı təzyiq etmək üçün Azərbaycan hökuməti ilə mütəmadi olaraq görüşür. Səfirliyin əməkdaşları mütəmadi olaraq müsəlman, xristian və yəhudi icmalarının nümayəndələri ilə görüşərək hökumətin onların dini ayinlərinə qarşı olan münasibətini müşahidə altında saxlayır. Səfir Robert F. Sekuta 2017-ci ilin iyun ayında Ramazan vaxtı iftar süfrəsi təşkil edərək Azərbaycanı dini tolerantlıq ənənəsini davam etdirməyə səsləmişdir.